Təqdimat

# "Risalə"nin yeni töhfələri

**Aprelin 2-də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində "Risalə" elmi araşdırmalar jurnalının yeni nömrələrinin təqdimatı keçirilib.**



Mərasimi giriş nitqi ilə muzeyin direktoru, akademik Rafael Hüseynov açaraq Ədəbiyyat Muzeyində "Risalə" elmi araşdırmalar jurnalı ilə yanaşı, "Beşlik" - "Qaynaq" mənbələr, "Şərq" tərcümə, "Xəzinə" kataloqlar və "Məclis" mərasimlər toplularının da dərc edildiyini diqqətə çatdırıb. Sanballı yazıların toplandığını bu nəşrlərin hər birinin böyük dəyər daşıdığını deyən akademik Rafael Hüseynov "Risalə" jurnalının ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq problemlərinin elmi araşdırmalarından ibarət məqalələr toplusu olduğunu bildirib. O, yaxın gələcəkdə "Risalə" jurnalının ildə bir dəfə olmaqla ingilis dilində məqalələrdən ibarət nəşrinin nəzərdə tutulduğunu söyləyib.

Akademik Rafael Hüseynov jurnalın yeni sayında işıq üzü görmüş "Apostrofun Azərbaycan dilindəki yeri və ona qarşı olmanın yersizliyi" adlı məqaləsindən də bəhs edib. Bildirib ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan dilində, təxminən, minə qədər apostroflu söz olub. Sözlərin leksik-semantik planda məna fərqlərinin müəyyənləşdirilməsində, omoqrafların (şəkilcə omonim, oxşar, vurğusuna görə fərqlənən sözlər) yazılışında, bu sözlərin aydın tələffüzündə, hecaya ayırmasında apostrof vacib köməkçi vasitədir. Həmçinin apostrof klassik ədəbiyyatın düzgün oxunulması üçün əsas vasitələrdən biridir.

Əlifbada apostrofun bərpasının tərəfdarı olduğunu deyən alim vurğulayıb ki, apostrofun qalması Azərbaycan dilini öyrənənlərə bu dili daha dərindən, incəliklərinə qədər öyrətməyə imkan verir. O, apostrofdan dünya dillərində də tələffüzü asanlaşdıran bir işarə kimi istifadə olunduğunu bildirib.

Akademik Rafael Hüseynov "Risalə" elmi araşdırmalar jurnalının filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövrü elmi nəşrlər siyahısında olduğunu deyib.

Direktor jurnalın yeni saylarında muzey əməkdaşlarının, elmlər doktorları, fəlsəfə doktorları, dissertasiya müdafiəsinə hazırlaşan gənc tədqiqatçıların müxtəlif mövzuları ehtiva edən elmi məqalələrinin dərc edildiyini söyləyib. O qeyd edib ki, jurnalının növbəti nömrələrində Faiq Əliyevin "Nəsiminin "ənəlhəq" fəlsəfəsi", Günel Səfərovanın "Salam Qədirzadənin "Qış gecəsi" romanı", Elazə Musayevanın "Pirəbədil" xalçaları xarici tədqiqatçıların gözü ilə", Aytac Həmidovanın "Rüfət Əhmədzadənin həyat yolu", İlahə Dadaşovanın "Şahin Fazilin "Meylimə imkan eləyən Şahinəm" qəzəli sənətkarın təqdimatı kimi", Cəmilə Dəmirovanın "Yəhudi şairlərin islama zidd mövqeyi", Məhəmmədəli Hüseyninin "Sultan Əhməd Cəlairi" və digər məqalələr işıqlandırılıb. O, jurnalda görkəmli yazıçılar Salam Qədirzadə, Rüfət Əhmədzadə və tarixçi, şərqşünas Şahin Fazilin yaradıcılığından bəhs edən məqalələrin də yer aldığını söyləyib.

Çıxışının sonunda akademik Rafael Hüseynov jurnalda dərc olunan məqalələrin elmi əhəmiyyətini qeyd edib, müəlliflərə yaradıcılıq uğurları arzulayıb.

Sonda tədbirdə iştirak edən məqalə müəlliflərinə "Risalə" elmi araşdırmalar jurnalının yeni nömrələri təqdim olunub.